Layihənin istiqaməti: Regionların sosial-iqtisadi inkişafının təşviq edilməsi

# REGİON

№ 133 (1261) 21 iyul - 22 iyul 2016-cı il

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDU

# TARİXİ YENİDƏN YAZILAN QOBUSTAN

(əvvəli ötən sayımızda)

### *Ölkə rəhbərinin qayğısı bütün sahələrə sirayət edir və minnətdarlıqla qarşılanır*

**Rayonda aztəminatlı ailələrə, şəhid ailələri, Qarabağ əlilləri və hərbi xidmət əlillərinə diqqət və qayğı, əhalinin sosial müdafiəsi, işlə təmin olunması məsələlərinə xüsusi diqqət yetirilir.**

Novruz bayramı və Ramazan bayramlarının hər birində 520 ailəyə, eyni zamanda "N" saylı hərbi hissənin əsgərlərinə İcra hakimiyyəti tərəfindən bayram hədiyyələri verilmişdir.

Bu ilin Ramazan bayramı ərəfəsində "Polad Yol Yapı" anonim Şirkəti tərəfindən də 150 ailəyə bayram sovqatı verilmişdir.

Rayon üzrə 2329 nəfər sosial müavinət,4623 nəfər pensiya, 657 ailə isə ünvanlı dövlət sosial yardımı alır.

16 fevral 2016-cı il tarixdən Ünvanlı Sosial Yardımı yeni qaydalara əsasən Elektron Hökumət Portalı vasitəsilə aparılır. Bu sistem vətəndaş-məmur qarşılaşmasını minimuma endirmişdir. Qeyd olunmalıdır ki, rayonda əhalinin özünüməşğulluğu üçün maarifləndirmə tədbirləri davam etdirilir. Hər bir vətəndaşın şəxsi təsərrüfatının yaradılması istiqamətində təbliğat aparılır. Lakin həqiqətən ehtiyacı olan ailələrin də bəzi hallarda çətinliklə rastlaşdığının şahidi oluruq.

Rayonda əhalinin məşğulluğunun təmin olunması istiqamətində bir sıra tədbirlər görülür. Cənab Prezidentin tapşırığı ilə bu ilin fevral ayında rayonda müxtəlif sahələr üzrə 212 ictimai iş yeri açılmış, 203 nəfər həmin iş yerlərində müvafiq işlə təmin olunmuşdur. Onu da qeyd edək ki, bu iş yerlərinin açılması ciddi əhəmiyyət kəsb etmiş, işlə təmin olunmuş aztəminatlı ailələr öz müraciətlərində dəfələrlə cənab Prezidentə minnətdarlıqlarını ifadə etmişlər.

> **"...Son illərdə Azərbaycanın bütün bölgələrində müasir xəstəxanalar tikilir, təmir olunur, diaqnostika mərkəzləri inşa olunur. Son 11 il ərzində Azərbaycanda 500-dən çox tibb müəssisəsi tikilmiş, təmir edilmiş, müasir avadanlıqla təchiz olunmuşdur. Bu, insanlara göstərilən diqqətin təzahürüdür".**
>
> ***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev***

Bundan əlavə təkcə bu ilin 6 ayında su və kanalizasiya layihəsini həyata keçirən "Çukurova Su İstilik Quraşdırma Birgə Müəssisəsi" MMC-də 91 nəfər işlə təmin olunmuşlar. Ümumilikdə bu layihə üzrə rayonda 316 nəfər çalışır.

### *Səhiyyə, təhsil, mədəniyyət və idman uğurları*



2016-cı ilin birinci yarısı səhiyyə, təhsil, mədəniyyət, gənclər və idman sahələrində də mühüm tədbirlərlə, ciddi uğurlarla yadda qalmışdır.

Məlum olduğu kimi bu il də cənab Prezidentin tapşırığı əsasında əhalinin tibbi müayinəsi aparılmışdır. Rayon üzrə 25615 nəfər tibbi müayinədən keçmiş, 1814 nəfər ambulator müayinəyə, 75 nəfər stasionar müayinəyə cəlb edilmiş, 10 nəfər cərrahi əməliyyat olunmuş, 106 nəfər isə müayinə üçün Bakı şəhərinə göndərilmişdir.

Rayonda təhsilin səviyyəsi əvvəlki illərə müqayisədə yüksəlməkdədir. Bu il Dövlət İmtahan Mərkəzinin Təhsil Nazirliyinə təqdim etdiyi məlumata əsasən Qobustan rayonu üzrə IX sinif məzunlarının nəticələrində əvvəlki illə müqayisədə 7 faiz müsbət dinamika olmuşdur.

Qobustan 2 saylı tam orta məktəbin şagirdi Bayramova Rəvanə Səyavuş qızı "Milli mənəvi dəyərlər haqqında düşüncələrim" mövzusunda keçirilən inşa yazı müsabiqəsinin respublika mərhələsində müvəffəqiyyətlə çıxış edərək respublika birincisi olmuşdur.

Ş.Şikarov adına Sündü kənd tam orta məktəbinin IX sinif şagirdi Ağaverdiyev Aydın Habil oğlu tarix fənni üzrə respublika fənn olimpiadasının qalibi olaraq qızıl medala layiq görülmüşdür.

İdman sahəsində də bu ilin 6 ayında bir sıra uğurlar olmuşdur. Ukraynanın Xarkov şəhərində Karate üzrə keçirilən dünya çempionatında rayon idmançısı İbad Rzazadə uğurla çıxış edərək 2 qat dünya çempionu adına layiq görülmüş, yetirməsi isə dünya üçüncüsü olmuşdur.

### *Cüdonun və ağır atletikanın yeni ünvanı - Qobustan!*

Cüdo idman növünün rayonda yeni yaranmasına baxmayaraq, artıq idmançılar respublika yarışlarından əlavə beynəlxalq turnirlərdə də uğur qazanmışlar. Perspektivli cüdoçu Babarəhim Mirzəyev aprel 2016-cı il tarixində Türkiyənin Adana şəhərində "Adana kurtuluş kupası Türk cumhuriyyetleri uluslararası Cüdo turniri"ndə də uğurla çıxış edərək öz çəki dərəcəsində bütün rəqiblərinə qalib gəlmiş və fəxri kürsünün ən yüksək pilləsinə qalxmışdır.



Ağır atletika üzrə yeniyetmələr arasında ötən ay keçirilən ölkə birinciliyində isə gənc ağır atlet Kamran Ağalarov ona bəslənilən ümidləri doğruldaraq 1-ci yerə layiq görülmüşdür.

### *Artıq hər ilimiz həm də Kənd Təsərrüfatı ilidir*

Məlum olduğu kimi Qobustan aqrar rayondur. Bu ilin məhsulu üçün rayonda 24645 ha sahədə taxıl əkilmişdir ki, bundan 15436 ha buğda, 9209 ha isə arpadır. 198,5 ha sahədə isə yazlıq əkinlər əkilmişdir. Bu il rayonda ziyanvericilərə qarşı ciddi mübarizə tədbirləri aparılmışdır. Bütün kəndlərə dövlət tərəfindən pulsuz dərman preparatları verilmiş, Bitki Mühafizə İdarəsi tərəfindən vətəndaşlara birbaşa köməkliklər göstərilmişdir. Eyni zamanda əkinlərdə qidalandırıcı gübrələrdən səmərəli şəkildə istifadə olunmuşdur. Elə bunun nəticəsidir ki, taxılçılıq üçün əlverişli keçməyən hava şəraitində əkinlərin vəziyyəti qənaətbəxşdir. Bu il 55,0 min tona yaxın taxıl istehsalı gözlənilir.

Hazırda rayonda biçin işləri gedir. Ümumilikdə 18,0 min hektardan artıq sahədə biçin aparılmış, hər hektardan məhsuldarlıq 22,3 sentner təşkil etmişdir.Biçin kampaniyasına 110 kombayn cəlb edilmişdir. Bu sahədə çətinlik yoxdur. Hava şəraiti imkan verərsə ayın sonunadək biçin işləri yekunlaşacaqdır.

Bu ilin birinci yarısında 1 dövlət, 1 Bölgə Təcrübə Stansiyası və 14 fiziki şəxs tərəfindən 2900 ha sahədə taxıl toxumu əkilmişdir. Bu orta hesabla 8,0 min tondan çox toxum istehsalı deməkdir ki, bunun da 5,0 tona yaxını daxili tələbat, qalan hissəsi isə digər rayonlara satılması üçün nəzərdə tutulur.

**Onu da qeyd edək ki, hazırda "Qobustan" buğda sortu dəmyə şəraitində həm məhsuldarlıqda, həm də xəstəlik və yatmaya qarşı davamlılıqda xüsusilə seçilir.**

**(ardı gələn sayımızda)**

***Məzahir ƏHMƏDZADƏ***

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDUNUN MALİYYƏ YARDIMI İLƏ